# Dibi görünməyən qaranlıq quyudan işıqlı gələcəyə doğru gedən yol



**"Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!"**

***Ümummilli Lider Heydər Əliyev***

**Bənzərsiz liderlik keyfiyyəti, cəsarəti, misilsiz dünyagörüşü və insanı heyran edən natiqlik istedadı ilə Heydər Əliyev şəxsiyyəti bu günə kimi hələ də büsbütün öyrənilməmiş sirli bir dünyadır. Ağır, mürəkkəb hətta çıxılmaz hesab olunan vəziyyətlərdən dövlət xadimi kimi alnıaçıq çıxmaq bacarığı Ulu Öndərdə sanki bir Allah vergisi idi. Ümummilli Lider Heydər Əliyev bütün çətinliklərə rəğmən istedadı və vətənpərvərliyi sayəsində Sovet İttifaqı kimi nəhəng bir imperiyanın rəhbərlərindən birinə, sonradan müstəqil Azərbaycanın qurucusuna - Ümummilli Liderə çevrildi. Ulu Öndər öz doğma xalqını dibi görünməyən quyudan çıxarıb işıqlı gələcəyə tərəf inamla apardı.**

*Bu fikirlər Prezident təqaüdçüsü, "Qərbi Azərbaycan milli-mədəni inkişaf" İctimai Birliyinin təsisçisi Seyid Aynurun "Dibi görünməyən qaranlıq quyudan işıqlı gələcəyə doğru gedən yol" adlı məqaləsində yer alıb. Məqaləni təqdim edirik.*

Ulu Öndərin sayəsində yaradılmış Cəmşid Naxçıvanski adına hərbi məktəb gələcək milli ordu quruculuğunun əsasını təşkil edib, Azərbaycan SSR-in Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili dövlət dili kimi öz hüquqi qüvvəsini tapıb. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyinin birinci dövrü xalqın milli oyanışı olacaqdı. Daim xalqının gələcəyini düşünən böyük azərbaycanlının əzmkarlığı sayəsində yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial sonralar respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaradacaqdı.

Azərbaycanı müstəqilliyini itirmək təhlükəsindən, etnik əlamətə görə parçalanıb yox olmaqdan xilas etmək üçün 1993-cü il iyunun 15-də xalqın tələbi ilə Bakıya gələn Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, xalqımız böyük siyasət adamını hakimiyyətə gətirdi. Bu tarixi hadisə gələcəkdə Azərbaycanın xarici və daxili düşmənlərinin pis niyyətlərini ürəklərində qoyacaq, vətəndaş müharibəsinin qarşısını alacaq, Azərbaycan Respublikasını bütün dünya dövlətləri üçün bərabərhüquqlu tərəfdaşa çevirəcəkdi.

Ulu Öndərin nəhəng siyasi layihələrdən biri olan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və xalqımızın taleyində neft strategiyasının nə qədər böyük əhəmiyyət daşıdığını Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının III qurultayındakı nitqində dəqiq şəkildə belə ifadə edib: "Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində ölkəmizə milyardlarla dollar xarici sərmayə gətirilibdir. Əgər 1994-cü ildə, o çətin şəraitdə "Əsrin müqaviləsi" imzalanmasaydı, ondan sonrakı dövr ərzində bütün infrastruktur layihələri həyata keçirilməsəydi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlanmasaydı, bu gün Azərbaycanda iqtisadi inkişafdan, ümumiyyətlə, söhbət gedə bilməzdi".

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası ilə hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğuna doğru mühüm addımlar atıldı. Ulu Öndər sovet rejiminin bir-birindən ayrı saldığı dünya türklərini birləşdirmək məqsədilə Böyük İpək Yolu layihəsinin həyata keçirilməsinə, türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin və dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyinin bütün dünyada qeyd olunmasına nail oldu.

Tarix boyu azərbaycanlıların yaşadıqları ərazilər hesabına ermənilər özlərinə Cənubi Qafqazda dövlət qurmağa çalışıblar və bu məqsədlə azərbaycanlı əhalinin fiziki məhvindən nəinki çəkinməyib, məkrli niyyətlərinə çatmaq üçün saysız deportasiyalar həyata keçiriblər. 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə vəhşiliklərlə həyata keçirilmiş köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək



Azərbaycana sığınıb. Ümummilli Lider 1998-ci ildə Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında indiki Ermənistan adlandırılan ərazilərin tarixən Azərbaycana mənsubluğu məsələsinə toxunub. Elə həmin ilin dekabrında "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun iştirakçılarının bir qrupu ilə görüşdə çıxış edən Ulu Öndər Heydər Əliyev bir daha Qərbi Azərbaycan məsələsindən bəhs edib. Qafqazın müxtəlif ölkələrindən olan nümayəndələrin qarşısında açıq şəkildə mövqeyini belə ifadə etmişdi: "İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan - İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı - bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda İslam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır".

Ulu Öndər Heydər Əliyevin nitq və çıxışlarında İrəvan və Zəngəzur torpaqlarına qayıdış məsələsi də əhəmiyyətli yer tutub. Ümummilli Lider Qərbi Azərbaycan torpaqlarına qayıdışın gələcəkdə reallaşacağına inamını belə dilə gətirib: "Mən buna inanıram. İnanıram ki, o yerlərin sahibləri - müsəlmanlar, azərbaycanlılar oraya qayıdacaqlar".

Xalqımız Ali Baş Komandanın apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların tez bir zamanda öz doğma torpaqlarına qayıdacağına əmindir. Qarabağın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası Ümummilli Lider Heydər Əliyevin ən böyük amalı idi. Bu arzunu onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev yerinə yetirdi. Ölkəmizin ərazi bütövlüyü Ali Baş Komandanın rəhbərliyi altında Ordumuzun gücü, antiterror tədbirləri nəticəsində tam bərpa olundu.

Azərbaycanın qısa bir zaman kəsiyində dinamik inkişaf edərək beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilməsi şübhəsiz ki, Prezident İlham Əliyevin Ulu Öndərin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirməsinin nəticəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyevin siyasəti yaşayır, onun ideyaları, fəlsəfəsi, ideologiyası yaşayır, qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir".